ƏLİHƏSƏN ŞİRVANLI — 80

Hörmətli Əlihəsən müəllim!

Sizi 80 illik yubileyiniz münasibətilə təbrik edirik. 1960-cı illərdən bəri şerləriniz və alman dilindən bədii tərcümələriniz mətbuatda dərc olunur. İndiyədək on iki kitabınız işıq üzü görmüşdür. Əsasən azyaşlı uşaqlar üçün yazdığınız kiçik nümunələr vətənpərvərlik mövzusundadır və tərbiyəvi əhəmiyyətə malikdir.

Yaradıcılığınızın dəyərli cəhətlərindən biri də budur ki, alman ədəbiyyatının klassiklərindən orijinal tərcümələr edirsiniz. Hötedən, H.Heynedən, F.Şillerdən, B.Bregtdən və b. çoxlu sayda tərcümələriniz var. Eyni zamanda Almaniyada çıxan qəzet və jurnallarda doğma respublikamızdan, Dağlıq Qarabağ həqiqətlərindən söhbət açan yazılarınız dərc olunub.

Hörmətli qələm dostumuz, sizi yubileyiniz münasibətilə bir daha təbrik edir, sizə uzun ömür, cansağlığı, yaradıcılıq uğurları arzulayırıq.

AZƏRBAYCAN YAZIÇILAR BİRLİYİ

Y.V.HÖTE

DÖRD MƏRHƏMƏT

Deyirlər ərəblər doğma diyarda
Uzaq yol getdikcə hünər göstərib, —
Tanrı bu mərd xalqa nurlu bir səhər
Dörd böyük mərhəmət mükafat verib.

Birinci çalmadır, ağappaq, qəşəng...
Şahların tacından daha bəzəkli;
İkinci çadırdır, köçdə, səfərdə...
Yatıb dincəlməkçin daim gərəkli.

Üçüncü qılıncdır, xalqı qadadan —
Möhkəm divardan da yaxşı qoruyur;
Dördüncü mükafat şirin nəğmədir, —
Qızlar oxuduqca min sevinc duyur.

Nazəndə gözəlin örpəyindəki
Gülü vəsf edərəm ürək sözümdə;
O qız yaxşı bilər qisməti nədir, —
Həmişə qəşəngdir mənim gözümdə.

Şirin meyvəni də, tər çiçəyi də
Süfrəyə düzməyi bacararam mən;
Ədəbdən, əxlaqdan dərs istəsəniz
Onu da verərəm lap təzəsindən.

FRİDRİX ŞİLLER

ÜMİD

Gələcək işıqlı, nurlu gün deyə,
İnsanlar danışır, xəyala dalır;
Əziz bir məqsədçin həmişə onlar
Keçilməz dağlara yolunu salır...
Dünya qocalsa da, gəncləşər yenə,
İnsan ümid edər gözəl bir günə!

Həyata yönəldir insanı ümid, —
Uşağı həvəslə ucaldır dağa;
Ruh verir cavanın cazibəsinə,
Qocayla gömülmür qara torpağa!
Məzarda yorğunluq nədir bilməyir, —
Torpaqdan göyərir, ümid ölməyir.

Ümid bir hərcayi duyğu deyil ki,
Axşam beyinlərdə bitsin, doğulsun;
Ürəkdə müqəddəs bir səs deyir ki:
Adamlar anadan ağıllı olsun...
Könül səslərimiz nə deyirsə bax, —
Ümidli qəlbimiz o səsdir ancaq!..

Almancadan çevirəni:
Əlihəsən ŞİRVANLI

ƏZİZ MUSA — 50

Hörmətli Əziz Musa!

Sizi — istedadlı şairimizi yarıməsrlik yubileyiniz münasibətilə təbrik edirik.

Ədəbi yaradıcılıqla 1970-ci illərin əvvəllərindən məşğul olmağa başlamısınız. Respublika mətbuatında, müxtəlif almanaxlarda şerləriniz dərc olunmuşdur.

İlk kitabınız — "Ay işığı" "Gənclik" nəşriyyatında çapdan çıxmışdır. Daha sonra "Qərib nəğmələr", "Bizə qaçqın deməyin", "Yaşıl ümidlər", "Dünyanın yeddi rəngi", "Ayrılıq", "Dağlarda qalan izlər", "Məni tənha qoyma" kitablarınız oxucuların ixtiyarına verilmişdir. Yaradıcılığınızın mayası xalqımızın başına gətirilən faciələrdən yoğrulub. Kitablarınızda toplanmış şerlərinizin əksəriyyəti itirilən torpaqlarımıza, didərgin soydaşlarımıza, Vətənimizin şəhid övladlarına həsr olunmuşdur. Qarabağ müharibəsinin iştirakçısı, taleyinə köçkünlük yazılmış bir insan kimi qələmə aldığınız mövzuları dərindən duyaraq, yaşayaraq şerə çevirir, oxucularla paylaşırsınız.

Hörmətli qələm dostumuz, sizi bir daha yubileyiniz münasibətilə təbrik edir, sizə uzun ömür, cansağlığı, yaradıcılıq uğurları arzulayırıq.

AZƏRBAYCAN YAZIÇILAR BİRLİYİ

Əziz MUSA

BİR KƏND QALIBDI

Dağların qoynunda bir kənd qalıbdı
Qanadım olsaydı, ora uçardım.
Həsrəti canımı oda salıbdı
Qollarım çatsaydı, boynun qucardım.

Dalımca boylanır öz anam kimi,
Ağlayır bulağı, susub bülbülü.
Çox çəkib nazımı, çəkib yükümü,
Könlümü oxşayıb çəməni, gülü.

Dərəsi tamaşa, düzü tamaşa,
Toyunda qol açıb süzmüşəm onun.
Palıdı baş-başa, çinarı qoşa,
Seçib tər gülünü üzmüşəm onun.

Hər daşı, qayası əzizdir mənə,
Beşiyim olubdu isti qucağı.
Necə oğul verib doğma vətənə,
Qəlbimə nur səpib odu, ocağı.

Dağların qoynunda bir kənd qalıbdı
Min dərdə dərmandı suyu, havası.
Nə vaxtdı aranı duman alıbdı,
Boylana-boylana qalıb balası.

DÖYÜŞƏ GEDİRƏM

Talanmış yurd, yuva çağırır məni
Döyüşə gedirəm yuxularımda.
Keçirəm dumanı, keçirəm çəni,
Döyüşə gedirəm yuxularımda.

Gündüz nə çəkirəm bir allah bilir,
Hər gecə şəhidlər dirilib gəlir.
Qeyrətim gözümün yaşını silir,
Döyüşə gedirəm yuxularımda.

Vətənə uzanan yollar görünür,
Ürəyim şəfəqə, nura bürünür.
Qayalar qalaya, səngərə dönür,
Döyüşə gedirəm yuxularımda.

Qarşımda diz çökür, yalvarır yağı,
Başını dik tutur Ziyarat dağı.
Bağrıma basıram mən Qarabağı,
Döyüşə gedirəm yuxularımda.

Bu torpaq köksündən od verir mənə,
Vətən qılınc verir, at verir mənə,
Qorqud məclis qurur, ad verir mənə,
Döyüşə gedirəm yuxularımda.

Əziz oxucular, aşağıdakı mətbuat yayımı və satışı ilə məşğul olan firmaların xidmətindən istifadə etməklə qəzetimizə asanlıqla abunə yazılmaq olar: "Mətbuatyayımı" İstehsalat Birliyi (abunə şö'bəsi: 40-10-35, 40-27-85), "Qasid" firması (abunə şöbəsi: 43-14-06), "Qaya" firması (abunə şöbəsi: 41-35-33, 90-67-13).

Bu məsələlərlə bağlı 39-50-67 nömrəli telefonla redaksiyamızın abunə şö-bəsinə müraciət edə bilərsiniz.



"Mətbuatyayımı" İB

3 aylıq — 9800 manat
6 aylıq — 19600 manat
1 illik — 39200 manat

"Qasid"

1 aylıq — 3500 manat
3 aylıq — 10500 manat
6 aylıq — 21000 manat
1 illik — 42000 manat

"Qaya"

1 aylıq — 2000 manat
3 aylıq — 6500 manat
6 aylıq — 13000 manat
1 illik — 26000 manat

SÖZ İŞIĞINDA

Rafiq Yusifoğlu uşaq ədəbiyyatında işıqlı, yaraşıqlı şerləri ilə kiçikli-böyüklü oxucuların ürəyinə yol tapan, bu şer, sənət yolunda "at çapan" istedadlı qələm əhlidir. Onun bu günlərdə işıq üzü görən "Çiçək yağışı" adlı kitabı da uşaq dünyasından, bu dünyanın sehr-cazibəsindən söz açan gözəl bir şer toplusu kimi nəzər-diqqətimi cəlb etdi. Bu şerləri oxuyanda bir daha əmin oldum ki, yaxşı uşaq şeri yazmaq, uşaq könlünü oxşamaq əlinə qələm alan hər şairin işi deyildir. Çünki ilk baxışdan yazılması çox asan görünən bu şerin müəllifi özü gərək uşaq kimi saf, kövrək və böyük ürək sahibi olsun və əsərinin çəkisi yüngül, amma dəyəri ağır olsun.

Rafiqin "Çiçək yağışı"nda ürəkdə əks-səda verən, çox tutumlu, xoş ovqatlı misralar, şerlər üç deyil, beş deyil... Mənə elə gəlir ki, çiçəklərin də, yağışın da ürəklərdə yaratdığı xoş ovqat öz vaxtında daha gözəl olur. Xoşbəxtlikdən şair dostumun şerlər kitabı "Çiçək yağışı" kimi ürəkləri riqqətə gətirən, yüz-yüz, min-min sətirdən yoğrulmuş gözəl sənət toplusu kimi bu gün balaca dostlarımız üçün çox dəyərlidir. Amma doğrusu, bu kitabın şerini latın qrafikasında görmək bizə, xüsusən məktəbli dostlarımıza daha faydalı olardı.

Əsl uşaq şeri qanadlı olur, onun lakonikliyi, axıcılığı, ürəyə yatımlığı Rafiqin şerlərinin böyük qisminə xas cizgilərdir.

Yay ola,
Çay ola.
Qonşuda
Toy ola,
Çayda
Üzəsən,
Toyda
süzəsən...

İndiki günlərimizdə böyüklü-kiçikli heç bir oxucunun uzun-uzadı şerlərdən xoşu gəlmir. Şerin misraları, fikir yükü nə qədər yığcam və mənalı olarsa, onu əzbərləmək də asan olur. R.Yusifoğlunun yuxarıda nümunə gətirdiyim "Arzunun arzusu" kimi şerləri saysız-hesabsızdır.

Şairin "Sap cığırı" şerlərinin ahəngini, fikir aydınlığının təbiiliyini, sadəliyini görəndə heyrətlənirsən. Həqiqətən də Rafiq uşaq ədəbiyyatımızda oxucuları heyrətləndirən əsl uşaq şairidir. Həmin şerə diqqət yetirək:

Xəbəri yox xəbərdən,
Nənəm corab toxuyur.
Dalıb öz dünyasına
Asta-asta oxuyur.

Sap cığırı uzanır, —
Gedirəm qarasına.
Düz nənəmin yanından
Güllərin arasına.

Sən demə, bu cığırı
Bizim pişik salıbmış.
Yumağı siçan ilə
Tay-dəyişik salıbmış.

Çoxlarımızın görə bilmədiyi elə həqiqətlər, elə hadisələr olur ki, doğrudan da, onu görmək, şerə gətirmək barədə düşünmürsən. Rafiq hər bir həyat hadisəsində çoxlarının görə bilmədikləri bu həqiqətləri öz oxucusu ilə elə bölüşür ki, elə bil bu şeri oxucu özü görüb, Rafiq isə sadəcə olaraq onu şerə çeviribdir. Əsl uşaq şerinin böyüklüyü, cazibədarlığı da ondadır ki, həmin mövzu oxucu ürəyindən xəbər verir, onu həyat hadisələrinə sanki şair gözü ilə baxmağa sövq edir.

Əlbəttə, iri həcmli bir kitabda tonlanmış bütün şerlərin hamısı eyni ahəngdə, eyni rəngdə deyildir. Əlin beş barmağının beşi də eyni gücdə olmadığı həqiqətindən yanaşsaq, R.Yusifoğlunun bu gözəl şerlər kitabı bir ürəyin, bir əlin təpərindən çıxan gözəl, səmimi şer çələngidir.

İndi uşaqlarımızın yazıçı, şair sözünə böyük ehtiyacı vardır. Sənət dostumuzun böyük səyi, zəhməti, ən başlıcası isə ürəyinin hərarəti ilə isitdiyi, uşaqlara sevdirdiyi bu şerlər bu gün Azərbaycan məktəblilərinə çox lazımdır. Heç olmasa, hər məktəb bu kitabın bircə dənəsini əldə etsə, ibtidai sinif müəllimlərimiz ondan əlavə oxu kimi istifadə edə bilərlər.

Şahin XƏLİLLİ

RƏYLƏR

"SALAM, DÜNYANIN YİYƏSİ..."

Gənc yazar, istedadlı söz vurğunu Rafiq Hümmətin səsi son bir neçə ildə ədəbi mühitə yaxşı tanışdır. Bu yaxınlarda nəfis tərtibatı ilə ortaya qoyduğu "Salam, dünyanın yiyəsi..." şerlər kitabı göz qabağındadı. Kitaba təkrar nəzər saldım. Hər şey birdən başlanır. Elə birinci şer məni yaman tutdu:

Gün işığı ah çəkənin olammaz,
Daha gündüz ağ işıqlı kələkdi.
Gecə düşdü...
Şükür sənə Yaradan,
Gecə ki, var... qara gözlü mələkdi.

Mələk kimi pak, təmiz və gözəldir. Şəfavericiliyi ilə bərabər həm də doyumsuzdur.

Ah çəkirəm — söz düzülür uc-uca.

Ağrı yuyan söz ahdan, nalədən doğur. Doğulur ki, üzü qaysaq atan, altına sim yeriyən yaralara sarğı olsun, məlhəm olsun.

Kim gərəksə, Tanrı özü oyadıb
Kimin üçün boğaz yırtır azançı? —

deyən şairin ayıq-sayıqlığı, oyadan olduğu bəllidir. Və bir də o bəllidir ki, halal söz yaşıl dünyanın mavi irmaqlarından qaynaq alan axar sular qədər təmiz, şəffaf və pakdır.

R.Hümmətin ilk kitabı olan və həm də uğurlu addımı olan "Salam, dünyanın yiyəsi..." toplusunun dörd bölümə — daha doğrusu, dörd hissəyə ayrılması heç də təsadüfi xarakter daşımır. Dörd tərəfdən — şimal-şərqdən, cənub-qərbdən dünyaya nəzər salır. Dünyanın hər üzünü görür, həyatın ən xırda hadisəsi gözlərindən yayınmır. "Dimdiyindən tələyə düşən sərçəyə" də pay düşür Rafiq Hümmətin dilindən:

Sərçə ölümüdü bir tikə çörək,
Bir tikə çörəyin gücü böyükdür.
Özgə əməyinə uçqunan sərçə,
Özgə əməyinin öcü böyükdür — deyir.

Mövzular günün aktuallığından, real həyatın özündən doğur. Belə ki, həm də günün tələblərinə, zamanın ritminə uyğun olaraq hər söz öz yerini tutur. Və bir qədər də hamıdan qabaqda gedir.

Yer üzündən üzülürəm get-gedə,
Ayağım torpaqda duruş gətirmir.
Ya Tanrı qəzəbi tutubdu məni,
Ya da bəndələrin gözü götürmür.

Əlbəttə, bəndənin gözü "götürməz". Çünki modern — deyə sözün başına oyun açmaqdan uzaq olan gənc şairin tanışmünasib deyim formasında ölçülü-biçili dili təbii-şirin, mövzu və məzmun təzədir.

"Haram qonmaz mən oturan budağa" — deyən şair həm də bənzərsiz olan halal nəfəsi ilə seçilir. Bu halal nəfəs ona üzü Dədə Qorquddan bəri gələn el sənətkarlarının nəfəsindən, telli sazın sehrindən gəlir. Hər şey göründüyü və olduğu kimi apaydındır. Hər bir şerində saf duyğu, təmiz və sağlam yaşantı, mavi ruh, ağ ün var, bütün bunlar Rafiq Hümmətin çağlayan çeşməsinin gözündən gəlir.

Allaha xitabən dediyi:

"Sən ki, varsan... Rafiq Hümmət
neçidir?"

etirafı, səmimiliyi ilə gözəldir. Gözəldir ona görə ki, iddiaçı olmayan, kimə-kimsəyə dəyib-toxunmayan, tutduğu yolu başa vurmağa can atan qosqoca Dərviş sinnidir. Ayağı yer üzündə, əli Tanrı ətəyində, üzünü göylərə sarı tutur:

Yerdən yeri görəmmirəm, —
Uçam göylərə-göylərə.
Könlümün sirr qapısını
Açam göylərə-göylərə.

Və:

Qəhər oldu yeyilənlər,
Başa gəldi deyilənlər;
Daha yerdə döyülənlər
Gözləri göyə ağlayır.

Və yaxud:

Göy gözlə göyə baxmaqdan
Göylər göyərdi-göyərdi — deyir.

Poeziyamızın ağır, ancaq şərəfli yükünü kövrək boynuna alan gənc və istedadlı şairin keçdiyi yol-ərkan diqqətəlayiqdir. Ona görə ki, bugünkü olayı yüz il geriyə — keçmiş qan yaddaşına çəkməyi bacarır.

Belə ki, "Yüz ildi səni axtarırıq" deyən şair "Hardasan viranın oğlu?" — gözəl ağız deyimi olan söz vurğunudur.

İSAXAN

ƏHMƏDAĞA MUĞANLI

Azərbaycan ədəbiyyatına ağır itki üz vermişdir. Görkəmli nasir, ssenariçi — Dövlət mükafatı laureatı, əməkdar mədəniyyət işçisi Əhmədağa Muğanlı uzun sürən ağır xəstəlikdən sonra vəfat etmişdir.

Əhmədağa Muğanlı (Qurbanov Əhmədağa Əkbər oğlu) 1926-cı ildə may ayının 10-da Azərbaycan Respublikasının Biləsuvar rayonundakı Əliabad kəndində anadan olmuşdur. İbtidai təhsilini öz doğma kəndində, orta məktəbi isə Xırmandalıda bitirmişdi. Gənc yaşlarından orduda xidmət etmişdi. Sonra ADU-nun filologiya fakültəsində təhsilini davam etdirmişdi. Ədəbi fəaliyyətə "İnqilab və mədəniyyət" jurnalında (1951-ci il, N-11) dərc olunmuş "Biz qol çəkirik ki..." hekayəsi ilə başlamışdı. Ondan sonra dövri mətbuatda vaxtaşırı çıxış edib. 20-yə yaxın sənədli filmin — "Azərbaycan, Azərbaycan", "Alagöz yaylağında", "Muğanın dastanı", "Çobanbayatı", "Mən sərhədçiyəm" və s., həmçinin "Dağlarda döyüş", "Od içində vahə", "Qocalar, qocalar", "Atları yəhərləyin" (S.Rüstəmlə birlikdə) və "Doğma sahillər" bədii filmlərin ssenari müəllifidir.

Əmək fəaliyyətinə kənd məktəbində müəllimliklə başlamışdı. Sonra uzun müddət Cəfər Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasında sənədli-xronikal və elmi-kütləvi filmlər birliyinin baş redaktoru olmuşdu. Burada ssenari şöbəsinin redaktoru, sənədli-xronikal və elişləmişdi. Ədəbiyyat sahəsində xidmətlərinə görə medallarla və fəxri fərmanlarla təltif edilmişdi.

Görkəmli nasir, ssenariçi, gözəl dost, qayğıkeş ata olan Əhmədağa Muğanlının əziz xatirəsi Azərbaycan xalqının və onun qələm dostlarının qəlbində əbədi yaşayacaqdır.

AZƏRBAYCAN YAZIÇILAR BİRLİYİ

• • •

Sənin ölüm xəbərini eşidəndə çox sarsıldım. Səndən gizlətsəm də, özümdən gizlədə bilmərəm ki, o dəhşətli sözü eşitmək qorxusu beş il — sən yatağa düşəndən elə hey ürəyimdə, fikrimdə gəzib dolanırdı. O sözü eşitmədiyim hər gün sevinirdim. Axır ki, olacaq oldu — o sözü eşitdim və donub qaldım. Sənin bəyaz saçların, gülümsər üzün, qayğılı gözlərin gəlib durdu gözümün qabağında. Və xəyal məni nə az, nə çox — düz əlli il keçmişə — 1951-ci ilə, Biləsuvar rayonunun Xırmandalı kəndindəki orta məktəbə — sənin gümüş medalını təqdim etdiyimiz o toplantıya çəkib apardı. Məktəbimizin direktoru, sevimli müəllimimiz Abdulxeyir Əsgərov gümüş medalını sənə təqdim edərkən çox təsirli, tərbiyəvi sözlər dedi sənin haqqında, səni ən yaxşı məzun kimi çox təriflədi, bizə nümunə göstərdi səni. Sən də çıxış elədin. Qəribədi, 50 il qabaq sənin dediyin bu sözlər indi də yadımdadı:

"Oxumaq istəyənin döşəyi, yastığı kitab, yorğanı isə qəzet olmalıdı".

Sonra 1953-cu ildə "Azərbaycan" jurnalında "Biz qol çəkirik ki..." adlı ilk hekayənin çap olunması, mənim həmin hekayə haqqında yazdığım və "Azərbaycan gəncləri" qəzetində çap etdirdiyim ilk məqaləm yadıma düşdü. Sonra səninlə dostlaşdığım, oturub-durduğum illər, bu illərdə sənin bir-birinin dalınca ədəbi aləmdə qazandığın uğurlar — "Vicdan", "Tikanlı məftillər", "Şəhriyar əfsanəsi", "Çobanbayatı", "Şikəstə", "Ömürdən yeddi yarpaq", "Dağ-dağa söykənər" və s. povest və romanların, "Dağlarda döyüş", "Atları yəhərləyin" kinofilmlərinə yazdığın ssenarilərin, əsərlərin əsasında televiziyada hazırlanan tamaşalar, sonra əməkdar incəsənət xadimi, Respublika Dövlət mükafatı laureatı kimi yüksək adlara layiq görülməyin, bunların sənə, ailənə, dostlarına bəxş etdiyi sevinclər, ağıllı və qabiliyyətli övladlarının toy məclisləri... sənin uzun, əzablı, keşməkeşli və mənalı həyatının unudulmaz günləri düşdü yadıma. Bunlar sənin ömür kitabının fəsilləri, səhifələri idi və bütün bunların müəllifi sən idin.

Sən ədəbi mühitimizdə səssiz-səmirsiz gəzib dolaşan, başını aşağı salıb gecə-gündüz işləyən, heç kəsdən heç nə ummayan, yalnız öz halal zəhmətinə güvənən, heç kəsin sərvətində, şöhrətində gözü olmayan, paxıllıqdan, həsəddən uzaq bir insan idin, dostum. İndi sənin kimiləri azdı. Lovğalıqdan, təkəbbürdən uzaqdın. Mehriban, sadə, uşaq kimi pak və təmiz bir qələm sahibi idin. İndi beləleri də azdı. Səni iclaslarda, məclislərdə, tribunalarda danışan görmədim. Sən danışmırdın, sən ürəyini kağıza — kitablarına boşaldırdın. Sən Azərbaycanımızın, onun qızıl parçası olan Muğanımızın ulu tarixi keçmişini, şanlı qəhrəmanlıq səhifələrini varaqlayır, bu günümüzə gətirir və öz oxucularına sevdirirdin. Dədə Qorquddan tutmuş Qaçaq Nəbiyə qədər əfsanəvi tarixi qəhrəmanlarımız sənin qələminlə təzədən doğulur, yaşayır və mübarizə aparırdı.

Hələ üstünə axıdılan göz yaşları qurumayan, ləçəkləri solmayan əklillər qoyulmuş məzarının ziyarətindən qayıdarkən şair dostum, sənin oxuduğun məktəbi bitirmiş Zamin Ağəlioğlunu hamıdan çox fikirli görüb təsəlli vermək istədim. O köksünü ötürüb:

— Fikirləşirəm ki, Əhmədağadan sonra Muğanın tarixini, dərdlərini görəsən, kim yazacaq? — söylədikdə mən:

— Əhmədağa tək Muğanın tarixini və dərdlərini yazmırdı ki. O, bütün Azərbaycanımızın ağrılarını, problemlərini qələmə alırdı, — dedim.

Sən bu gəlimli-gedimli dünyamıza gəldin, yaşadın və getdin. Yox. Bu sözü — "getdin" sözünü sənin haqqında deməyə dilim gəlmir. Çünki sən sözün həqiqi mənasında əsl sənət adamı idin, sən həyatını, ömrünü, arzularını əsərlərinə köçürmüsən. Əsər-sənət, sənətkar isə ölmür, yaradanın əbədi yaşadır.

Yox, sən getmədin, sən övladlarının, dostlarının, oxucularının qəlbində yaşayırsan və yaşayacaqsan. Sən sadəcə yerini dəyişmisən. Özünün 50 il qabaq dediyin o sözlər yenə yadıma düşür: indi sənin döşəyin, yastığın da çox sevdiyin, yeniyetmə gənc ikən sinəni sipər edib qoruduğun ana torpağımızdı, yorğanın da, dostum.

Döşəyin, yastığın, yorğanın yumşaq olsun, Əhmədağa Muğanlı!

Əlibala HACIZADƏ

ALLAH RƏHMƏT ELƏSİN

Azərbaycan Milli Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitutunun əməkdaşları Azərbaycan dili tarixi şöbəsinin elmi məsləhətçisi, filologiya elmləri doktoru, professor

VAQİF İMAMƏLİ OĞLU ASLANOVUN

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

"Ədəbiyyat qəzeti"nin kollektivi "Xocalının səsi" qəzetinin baş redaktoru

SƏRDAR MEHDİYEVİN

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Baş redaktor: Ayaz VƏFALI

REDAKSİYA HEYƏTİ: Aqşin BABAYEV, Bəxtiyar VAHABZADƏ, Yaşar QARAYEV, Tehran ƏLİŞANOĞLU (baş redaktor müavini), Nazim İBRAHİMOV, Atababa İSMAYILOĞLU (məsul katib), Famil MEHDİ, Məmməd ALİM, Kamilə NEMƏT, Bəkir NƏBİYEV, Davud NƏSİB, Məmməd ORUC, Qəzənfər PAŞAYEV, Ramiz RÖVŞƏN, Sabir RÜSTƏMXANLI, SALAM, İsa HƏBİBBƏYLİ, Əzizə CƏFƏRZADƏ, Nizami CƏFƏROV

TƏSİSÇİLƏR: AZƏRBAYCAN YAZIÇILAR BİRLİYİ, "ƏDƏBİYYAT QƏZETİ"NİN YARADICI ƏMƏKDAŞLARI

REDAKSİYA ŞURASI: Yavuz AKPİNAR (Türkiyə), Seyfəddin ALTAYLI (Türkiyə), Əbdüllətif BƏNDƏROĞLU (İraq), Erkin VAHİDOV (Özbəkistan), Şölə VƏTƏNABADİ (ABŞ), Nurəddin QƏRƏVİ (Almaniya), İldəniz QURTULAN (Türkiyə), Yusif GƏDİKLİ (Türkiyə), İren MELİKOF (Fransa), Tofiq MƏLİKLİ (Rusiya), Hüseyn Əli MƏHFUZ (İraq), İrfan NƏSRƏDDİNOĞLU (Türkiyə), Qulamrza Səbri TƏBRİZİ (İngiltərə), Əta TƏRZİBAŞI (İraq), FƏRZANƏ (İran), Cavad HEYƏT (İran), Əhməd ŞMİDE (Almaniya)

Redaksiyanın ünvanı: Bakı-370146, Mətbuat pr. 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, 9-cu mərtəbə
TELEFONLAR: baş redaktor 39-52-56, baş redaktor müavini 39-50-67, məsul katib 39-91-68, şöbələr 38-03-17. Faks 38-85-70

Hesabımız: h/h 386139. Yasamal SİB KOD 501822

QİYMƏTİ: SATIŞ — 800 MANAT, ABUNƏ — 500 MANAT. Əlyazmalar geri qaytarılmır. *Cümə günü çıxır.*
Çapa imzalanmışdır: 9.VIII.2001 saat 20-50

"Ədəbiyyat qəzeti"nin kompüter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap olunur.

Şəhadətnamə N:186
İNDEKS 66800

Sifariş 3255
2066 nüsxə